





# Sonuncu günün üç gümüş medalı






**Rio Olimpiadasının sonuncu günü də ölkəmiz üçün uğurlu olub. İştirak etdikləri bütün turnirlərdən həmişə medallarla qayıtmağı qarşısına məqsəd qoymuş idmançılarımız Rioda da bu uğuru təkrarladılar. Sərbəst güləş yarışlarında Toğrul Əsgərovla Xetaq Qazyumov, boksda isə Sotomayor Lorenzo gümüş medal qazanmaqla xalqımızı sevindirdilər.**

65 kq çəki dərəcəsində yarışan London Olimpiadasının, Avropa çempionatının və I Avropa Oyunlarının qalibi Toğrul Əsgərov mübarizəyə 1/8 finaldan başlayıb. Ukraynalı həmkarı Andrey Kvyatovskini qazandığı ardıcıl xallarla 12:2 hesablı təmiz qələbə ilə məğlub edən pəhləvanımız 1/4 finalda ABŞ güləşçisi Frank Molinaro ilə üz-üzə gəldi. Bu rəqibini də təmiz qələbə ilə (10:0) döşəyə çıxmağa peşman edən güləşçimiz yarımfinalda italiyalı Frank Markez Xamizonu mübarizədən kənarlaşdırdı - 7:4.

Həlledici görüşdə rəqib rusiyalı Soslan Ramonov oldu. Təəssüf ki, idmançımız qızıl medalı qazana bilmədi. Rus güləşçi 1 dəqiqə ərzində ardıcıl fəndlərlə fərqi 11:0 edib və təmiz qələbə qazandı.

Görüşdən sonra məğlub olmağının səbəbini zədələnməsi ilə əlaqələndirən T.Əsgərov 4 ilin zirvə yarışından medalsız qayıtmadığına görə özünü xoşbəxt hiss etdiyini bildirdi: "Finaldan əvvəlki görüşlərim daha çətin idi. Ancaq qalib gələ bilmişdim. Finalda isə hakimin start fitindən sonra rəqibin başı almacıq sümüyümə dəydi, gözüm qaraldı. Xalçanı görmürdüm. Özüm də anlamadım ki, bu, necə oldu. Hər şey bir anda baş verdi. Sevinirəm ki, ən azı, ikinci dəfə ardıcıl medal qazanıram. Əgər medalsız qayıtsaydım, çox heyifsilənərdim. Neçə il çəkdiyim əziyyət hədər olardı. Ancaq "qızıl"ı əldən verdim. Bunu da özümə bağışlamaq çətin olacaq".

Xatırladaq ki, Toğrul Əsgərov 1992-ci il sentyabrın 17-də Gəncə şəhərində anadan olub. Güləşçimiz London Olimpiadasının, 2012-ci ildə Avropa çempionatının və "Bakı-2015" I Avropa Oyunlarının qalibi olub. Ötən il ABŞ-da təşkil olunan dünya çempionatının gümüş mükafatçısıdır.

Pəhləvanımız Prezident İlham Əliyevin sərəncamlarına əsasən, 2012-ci ildə Yay Olimpiya Oyunlarından sonra "Şöhrət" ordeni, 2015-ci ildə isə I Avropa Oyunlarında qazandığı qızıl medala görə "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

97 kq çəkidə yarışan digər bir pəhləvanımız Xetaq Qazyumov isə mübarizəyə təsnifat mərhələsindən qoşulub. Rəqib Polşa güləşçisi Radoslav Baran oldu. Rəqibinə 3:0 hesabı ilə qalib gələn Xetaq 1/8 finala yüksəlib. Bu mərhələdə onun rəqibi iranlı Mohammed Ali Reza Yazdani oldu. Gərgin döyüşü 2:1 hesablı qələbə ilə başa vuran təmsilçimiz 1/4 finala yüksəldi. Pəhləvanımızın növbəti rəqibi özbəkistanlı Maqomed İbraqimov oldu. Özbək idmançını 12:3 hesabı ilə üstələyən X.Qazyumov yarımfinalda mübarizə apardı. Bu mərhələdə ukraynalı Valeri Anditsevlə güləşdi və qalib ayrıldı - 11:0.



Finalda onun rəqibi son dünya çempionu Frederik Kayl Sneyder oldu. Xetaq Qazyumov gərgin keçən döyüşü 1:2 hesablı məğlubiyyətlə başa vurdu və Rioda gümüş medalla kifayətləndi.

Buna kimi Rioda sərbəst güləşçilərimiz Hacı Əliyev (57 kq), Cəbrayıl Həsənov (74 kq) və Şərif Şərifov (85 kq) da bürünc medal qazanmışdılar.

Xetaq Qazyumov jurnalistlərə açıqlamasında finaldakı məğlubiyyətinin səbəbini rəqibinin daha çox hazırlıqlı olması ilə əsaslandırdı: "Hədəfim qızıl medal qazanmaq idi, ancaq alınmadı. Nə etmək olar? O, məndən güclü idi. Çox ağıllı müdafiə taktikası seçərək arzusuna çatdı. Karyeramı başa vurmağımla bağlı qərarımı qarşıdakı günlərdə açıqlayacağam".

Xetaq Qazyumov 1983-cü il aprelin 24-də Rusiyanın Alagir şəhərində anadan olub. Uşaq yaşlarından idmana böyük maraq göstərib. 7 yaşında valideynləri onu güləş məktəbinə yazdırıblar. Xetaqın gələcək vəd edən idmançı olduğunu görən məşqçilər bir müddət keçdikdən sonra onu beynəlxalq yarışlara yollayıblar. Burada isə yeniyetmə idmançı müəllimlərinin ümidlərini boşa çıxarmayıb. Sonrakı illərdə qatıldığı yarışlarda qazandığı nəticələrlə idman ictimaiyyətinin diqqətini cəlb edib.

Güləşçimizin karyerası çox zəngindir. O, 2008-ci il Pekin və 2012-ci il London Olimpiadasında yığmamızın aktivinə bürünc medal yazdırıb. 2009-cu ildə Danimarkanın Herninq şəhərində gümüş, 2010-cu ildə Rusiyanın Sankt-Peterburq və 2011-ci ildə Türkiyənin İstanbul şəhərlərində keçirilmiş dünya çempionatlarının qızıl medallarına layiq görülüb. Bununla yanaşı, o, dünya kubokunun sahibi (2009-cu il), üçqat Avropa çempionudur (2009-cu, 2010-cu və 2011-ci illər). Otuz üç yaşlı idmançı "Bakı-2015" I Avropa Oyunlarının qızıl mükafatçısıdır. İlk Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə Prezident İlham Əliyevin sərəncamına əsasən "Şöhrət" ordeni ilə təltif edilib.

Nəhayət, 2016-cı il Rio Olimpiadasının gümüş mükafatçısı oldu. Xetaqın qazandığı uğurlarda məşqçilər korpusunun əməyi danılmazdır. Pəhləvanın əldə etdiyi nailiyyətlərdə məşqçiləri Aslan Tsoqoyev və Marik Tedeyevin payı böyükdür.

Rioda daha bir ilkə boks yarışlarında imza atılıb. Belə ki, Azərbaycan yığmasının üzvü Lorenzo Sotomayor 64 kq çəkidə finalda iştirak etməklə olimpiadalarda ilk dəfə Azərbaycanı boksda həlledici mərhələyə yüksəldib.

Keçdiyimiz günlərdə yarımfinalda Almaniyanı təmsil edən erməni rəqibi Artyom Arutyunyanla döyüşən təmsilçimiz yekunda inamlı qələbəyə (3:0) sevinib və finala yüksəlib. Həlledici mərhələdə rəqibi özbəkistanlı Fazliddin Qaybnəzərov oldu. Təəssüf ki, bu görüş təmsilçimizin məğlubiyyəti ilə başa çatdı. İlk raundu tam üstünlüklə öndə bitirən Sotomayor, ikinci hissədə rəqibindən geri düşdü. Ancaq üçüncü raundda idmançımız olduqca fəal döyüşsə də, yekunda hakimlər qələbəni özbək boksçuya verdilər - 1:2.

Boks yığmamızın hesabında əlavə 1 bürünc medal var. Komandamıza bu mükafatı Kamran Şahsuvarlı qazandırıb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdən sonra Lorentso finalda uduzduğuna görə çox məyus olduğunu qeyd edib: "Çox da sevincli deyiləm. Azərbaycan üçün qızıl medal qazanmaq istəyirdim. Ümumiyyətlə, döyüşü yaxşı keçirmişdim, son raundda qalib gələcəyimə tam əmin idim. Qarşılaşma boyunca hakim mənə qarşı sanki qərəzli mövqe tutmuşdu. Çox məyusam. Azərbaycanı çox sevirəm, Azərbaycan xalqına qızıl medal hədiyyə etmək istəyirdim, ancaq buna nail ola bilmədim".

Xatırladaq ki, Lorenzo Sotomayor 1985-ci il 16 fevral tarixində Kubada dünyaya gəlib. Bir neçə ildir ölkəmizin idman şərəfini qoruyan "Qəbələ" İdman Klubunun üzvüdür. 2014-cü ildə ölkə çempionluğuna sahib olub. "Bakı-2015" I Avropa Oyunlarında qızıl medal qazanan L.Sotomayor 29 iyun 2015-ci ildə qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamina əsasən, "Şöhrət" ordeni ilə təltif edilib.

İnanırıq ki, Riodan gümüş medalla qayıdan atletlərimiz qarşıdakı nüfuzlu turnirlərdə bizi qızıl mükafatla sevindirəcəklər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***